***Qumru ŞƏHRİYAR***
*AMEA Folklor İnstitutu*
*Filologiya üzrə fəlsəfə doktoru, dosent*
*nevayi-qumru@rambler.ru*
*ORCİD: 0000-0001-6130-7063*
*https://doi.org/10.59849/2309-7922.2026.1.192*

# QIRX BATIR HAQQINDA DASTAN SİLSİLƏSİNDƏ MUSAXAN EPİK PERSONAJİ VƏ "MUSAXAN" DASTANI

**Xülasə**

Qırx batır haqqında dastan silsiləsinin "Anşıbay batır və onun nəsli" halqəsinin altıncı bağı olan "Musaxan" dastanının öyrənilməsi istər epik hadisə kimi, istərsə də dastan qəhrəmanının tarixdəki prototipini araşdırmaq baxımından çox önəmlidir. "Musaxan" dastanı silsilənin daxilində özündən əvvəl "Nuradin" dastanının və özündən sonrakı "Orak və Mamay" və "İsmayıl" dastanları arasında bir körpü rolunu oynayır.

"Musaxan" dastanının tam mətni bir neçə dəfə işıq üzü görsə də, dastan jırav-söyəyicilərin repertuarında aktiv şəkildə yer almır. Tədqiqatçılar da dastanın toplanmasına və araşdırılmasına o qədər də maraq göstərməyiblər.

Məqalədə "Musaxan" dastanının Qırx batır haqqında dastan silsiləsindəki yeri və epik qəhrəman olan Musaxanın silsilə daxilindəki rolundan bəhs ediləcəkdir.

**Açar sözlər:** "Qırx batır", "Musaxan", silsilə, dastan, variant, tipologiya

***Gumru SHAHRIYAR***

## THE EPIC IMAGE OF MUSAHAN AND THE EPIC "MUSAHAN" IN THE EPIC CYCLIZATION OF THE FORTY BATYRS

**Abstarkt**

Studying the Musakhan epic, the sixth chapter in the "Anshibay Batyr and His Descendants" cycle of the epic cyclization of the Forty Batyrs, is significant both for its epic event and for exploring the historical prototype of the epic hero. The Musakhan epic serves as a connecting link in the cyclization between the preceding Nuradin epic and the subsequent epics "Orak and Mamai" and "Ismail".

Although the full text of the Musakhan epic has been published several times, it is rarely included in the repertoire of zhirav-storytellers. Researchers also show little interest in collecting and studying this epic.

The article will examine the place of the "Musakhan" epic in the cyclization of the Forty Batyrs epics, as well as the role of the epic hero Musakhan in this cyclization.

**Keywords:** "Forty Batyrs", "Musakhan", series, epic, variant, typology

*Гумру ШАХРИЯР*

**ЭПИЧЕСКИЙ ОБРАЗ МУСАХАНА И ЭПОС «МУСАХАНА» В ЭПИЧЕСКОЙ ЦИКЛИЗАЦИИ О СОРОКА БАТЫРА**

**Резюме**

Изучение эпоса «Мусахан», шестого звена в цикле «Аншибай батыр и его потомки», эпической циклизации о Сорока батырах, имеет большое значение как с точки зрения эпического события, так и с точки зрения исследования исторического прототипа эпического героя. Эпос «Мусахан» играет роль связующего звена в циклизации между предшествующим ему эпосом «Нурадин» и последующими эпосами «Орак и Мамай» и «Исмаил».

Хотя полный текст эпоса «Мусахан» публиковался несколько раз, он неактивно включён в репертуары жирав-сказителей. Исследователи также не проявляют особого интереса к сбору и изучению этого эпоса.

В статье рассмотрено место эпоса «Мусахан» в циклизации эпосов о Сорока батырах, а также роль эпического героя Мусахана в этой циклизации.

**Ключевые слова:** «Сорок батыров», «Мусахан», циклизация, эпос, вариант, типология

Qırx batır haqqında dastan silsiləsi orta əsrlərdə Qızıl Orda və onun xələflərinin haqqında yazılmış tarixin ən gözəl bədii ifadəsidir. Bu silsilənin içərisinə daxil olan dastanların sayından asılı olmayaraq nümunələr yüksək poetik dillə, zəngin ifadə vasitələri ilə söylənilmişdir. Silsillə orta əsrlərdə baş verən hadisələri ən xırda detalları ilə günümüzə qədər daşıyıb gətirmişdir.

Silsilənin yaranması, formalaşması və sona çatması şəcərənin, demək olar ki, tarix səhnəsində ilk üzə çıxan şəxsi ilə başlayıb, sonuncuya qədər davam edir. Bu, əslində böyük bir dövrü əhatə edir. Təxminən XIV-XVIII əsrlərdə tarix səhnəsində Qırx batır haqqında dastan silsiləsindəki epik qəhrəmanların prototiplərinin aktiv rolu aşkar görülməkdədir. "Qırx batır" dastan silsiləsi Orta Asiyada yaşamış qəhrəmanlar haqqında yaranan dastanların məcmusudur. Mövzu baxımından daha çox orta əsrlər tarixini əhatə edən silsilənin tərkibində dörd fərqli silsilə, yəni həlqə yer alır: 1. Anşıbay batır və onun nəsli; 2. Karadön batır və onun nəsli; 3. Kıdırbay və onun nəsli; 4. Müxtəlif batırlar haqqında jırlar. Bu həlqələr şəcərə bağları ilə biri-birinə bağlanır. Bu şəcərələrin nümayəndələri Qızıl Orda və Noqay Ordasının tarixində müstəsna yerə sahib olan tarixi şəxsiyyətlərdir.

Əslində Qırx batır haqqında dastan qəhrəmanlarının hər biri Qızıl Orda tarixində adını qızıl hərflərlə yazdırmış sərkərdə, Noqay Ordasının qurucusu Edigeyin şəcərəsinə aiddirlər. Ona görə də şəcərənin əsas bağı məhz onun haqqında yaranan "Edigey" dastanıdır. Bu, o deməkdir ki, orta ərslərdə Qızıl Ordada və ondan sonrakı Ordaların (Böyük Orda, Noqay Ordası və s.) süqutuna qədərki dövrdə yaranan bütün qəhrəmanlıq dastanları bu silsiləyə daxil etmək olar.

Epik silsilənin yaranma səbəbi, əslində, tarix səhnəsində baş vermiş hadisələri sona qədər izləmək ehtiyacından yaranır. Silsilənin əsasını nisbətən kiçik həcmli mətnlər təşkil edir. Silsiləyə daxil olan dastanların personajlarının böyük əksəriyyəti tarixi şəxsiyyətdirlər və onlar Orta Asiyada uzun əsrlər boyunca hökm sürən Qızıl Orda və onun törəmələrinin xanı, bəyi və sərkərdəsi olublar. Silsilə bioqrafik prinsiplər üzərində qurulmuşdur, amma buna baxmayaraq, epik düşüncənin qoyduğu bütün qaydalara da rəvayət edir.

Silsilənin özəyini təşkil edən, təbii ki, bir süjet xətti var. Bu süjet xəttini, əsasən, qəhrəmanın həyatı ilə əlaqəli epizodların xronoloji ardıcıllığı təşkil edir. Silsilənin həcmindən, hansı dövrdə təşəkkül tapmasından asılı olmayaraq, onun içərisində əsas bağ hesab edilən bir həlqə mövcud olur. Məsələn, bu, "Koroğlu" dastanının özbək və türkmən variantlarında Koroğlu, qırğız dastanı "Manas"da Manas, qaraqalpaq dastanı "Tulumbi"də isə Tulumbidir. Bilindiyi kimi, "Koroğlu" dastanının özbək və türkmən variantlarının yaratdığı silsilə Koroğlunun şəcərəsini, yəni oğlu Övəzi, nəvəsi Nurəlini və nəticəsi Cahangiri əhatə edir. "Manas" dastanında bu, "Semetey" və "Seytek" dastanlarıdır. "Tulımbi" dastanı"nın davamı isə "Nuradin" adlanır. Orta Asiya dastanları üçün xarakterik olan belə silsilə dastanların sayını artırmaq olar. Qırx batır haqqında dastan silsiləsində isə bu, "Edigey" dastanıdır. Silsilə məhz onun şəcərəsi əsasında yaranıb.

Haqqında danışmaq istədiyimiz "Musaxan" dastanı "Anşıbay batır və onun nəsli" həlqəsində yer alır. Həmin həlqəyə aşağıdakı dastanlar daxildir: "Anşıbay batır", "Parpariya", "Kuttıkıya", "Edigey", "Nuradin", "Musaxan", "Orak və Mamay", "İsmayıl", "Karasay, Kazı".

Qırx batır haqqında dastan silsiləsinə daxil olan "Musaxan" dastanı silsilənin birinci həlqəsi olan "Anşıbay batır və onun nəsli"nin altıncı bağıdır. Dastan Qazaxıstan Mərkəzi Elmi Kitabxanasının Nadir Kitablar və Əlyazmalar Kolleksiyasında (İnventar: OFK. 673 vərəq, 6 dəftər) mühafizə olunur. V.Jirmunski özünün "Xalq qəhrəmanlıq dastanı" adlı əsərində bu dastanı tədqiqata cəlb etmişdir. "Qazax dastanları" kitabının IV cildində və "Səhra folkloru antologiyası"nın II cildində isə dastanın tam mətni nəşr olunmuşdur. V.Trepavlov özünün "Noqay Ordasının tarixi" adlı əsərində də Musaxanın tarixi şəxsiyyəti ilə bağlı tədqiqat aparmışdır.

"Musaxan" dastanına özündən əvvəlki "Nuradin" dastanında silsilə gərəyi bir keçid var. Dastanda deyilir: "Bütün yol boyu atı Şubarla söhbət edən Nuradin yolda iyirmi nəfər qızılbaş qarovuluna rast gəlir. O, bir oxla beş nəfəri öldürür. Sonra qızılbaş xanı Şappazla döyüşə girir. Qüvvələri bərabər olmayan müharibədə o, Şappaz xana qalib gəlir. Xan qaçır. Nuradin bir qızılbaşdan onun yerini soruşur. O da xanın qamışlığa qaçdığını deyir. Nuradin qamışlığı yandırır. Şappaz xan oradan çıxmaq məcburiyyətində qalır. O, Nuradinə istədiyini verəcəyini deyir və onu evində üç gün qonaq edir. Onlar dostlaşırlar. Bir müddət orada qonaqlayan Nuradin geri qayıdanda ata-anası onu qarşılayır. Anası Nuradinin səfərə gedəndən sonra bir oğlu olduğunu və adını Musa qoyduqlarını deyir:

Qurban olum, çırağım
Sən atana çəkmisən.
Atanın yoluyla getmisən
İgidlik göstərdin,
Yad ellərə tək getdin.
Oralarda nə elədin?
Sağ-salamat qayıtdınmı?
Heç yorulmadınmı?

Məmnunam, ay Allahım
Balamın təqdirindən.
Qəbul oldu diləyim.
İndi üzümə qan gəldi.
Sən o tərəfə gedəndən sonra
Arxandan bir uşaq doğuldu.
Adını qoydum Musa deyə.
Mənim balama oxşa deyə.
[3, s. 227]

Silsilənin daxilində yer alan "Musaxan" dastanının iki variantı diqqəti cəlb edir. Onlardan silsilə qaydalarına uyğun gələn – N.Vasilyev və M.Sengirbekuli variantları.

**1. N.Vasilyev variantı.** Bu variant N.Vasilyev tərəfindən Aktübin əyalətinin Kobdin rayonunun sakini Kalijan Uteşevdən yazıya alınmışdır. Bu mətndə hadisələr qəhrəmanın ömrünün qocalıq çağında baş verir. Burada Musaxanın artıq 80 yaşı var. Onun oğlanlarından Mamay xan idi, Orak isə batır. Musaxan İdil çayının sahillərində köçəri həyat sürürdü. Onun çoxlu mal-qarası, geniş sahəli torpaqları, qırx min nəfərlik qoşunu var idi. Heç kəs Musaxanla vuruşmağa cürət etmirdi.

Musaxan bir zamanlar atası Nuradinə aid olan torpaqlara səfər edərək o yerlərin viranə qaldığını görüb köks ötürdü. Burada namaz qılmaq qərarına gəldi. Bu zaman kalmıklar ona hücum edərək boynuna zəncir salıb bağlayır və qamışlıqda ölümə tərk edirlər. O, dua edərək öz taleyinə ağlayır. Bu zaman onun səsini eşidən Jaŋbırşı Musaxanı görüb azad edir. Bundan sonra onlar dost olurlar.

Musaxanın azad olduğunu eşidən Şıntemir noqayların hücum edəcəyini düşünüb qırx min nəfərlik ordu ilə onların üzərinə yürüş edir. Jaŋbırşı bu ordunun qabağına təkbaşına çıxır və sonradan Musaxanın oğlanları Orak ilə Mamay da ona qoşulur. Onlar kalmıkların ordusunu darmadağın edərək Şıntemiri əsir götürüb edam edirlər. Onun yeganə qızı Gülqeybat isə Mamayla evlənir [4, s. 73].

**2. Murın Sengirbekuli variantı**. Dastanın bu variantında Musaxan üç dəfə kalmıklar üzərinə yürüş edir və hər dəfə də qələbə ilə qayıdır. Birinci döyüşdə o, on beş yaşında qırx nəfərlə kalmık xanı Kozan xanın oğlu Kosım xanla vuruşur. Təkbətək döyüşdə Musaxan Kosın xana qalib gəlir, onun başını kəsir, ordusunu isə darmadağın edir. İkinci döyüşdə min nəfərlə Kosımın qardaşı Ospanın üzərinə yürüş edir və üç günlük ağır döyüşdən sonra Ospanın ordusuna qalib gəlir. Sonuncu döyüşündə Musaxanın Balkan torpaqlarına qədər gedib çıxmasından bəhs olunur. Beş yüz nəfərlik ordu ilə o, kalmık xanı Asanazır xanı döyüşdə məğlub edir, başını kəsib ordusunu darmadağın edir [11, s. 94-106; 2, s. 228-255].

Qeyd edək ki, V.Jirmunski N.Vasilyev variantını "məzmunca daha maraqlı, real, xırda məişət məsələləri ilə və tarixə əsaslanan ənənəvi elementlərlə zəngin" [9, s. 398] hesab edir. Alim Murin Sengirbekuli variantı haqqında isə "şablon xarakterli və ənənəvi elementlərin az" [9, s. 397] olduğunu yazır. Əslində N.Va-

silyev variantı silsilənin qanunauyğunluqlarına da tam cavab verir. Amma tədqiqatçılar [2, 11] Murin Sengirbekuli variantını əsas götürürlər.

Musaxan epik qəhrəman kimi güclü olduğu qədər tarix səhnəsində də kifayət qədər aktiv bir fiqurdur. V.Trepavlov onun haqqında yazır ki, “Dəşti-qıpçaq xalqlarının epik folklorunda Musa obrazı Abbası və onun qardaşı Vakkası (hər ikisi Edigeyin oğlanlarıdır – Q.Ş.) sıxışdırıb tamamilə ortadan çıxarır” [14, s. 101]. Əbülqazi “Şəcəreyi-Türki” əsərində Musaxanın Kucaş adlı biri ilə döyüşdüyü yazır [12, s. 167]. Lakin Kucaşın kimliyi haqqında heç bir informasiya yoxdur. Yalnız Vakkasın ölümündə onun rolu olduğu bilinir. Musaxan Kucaşla apardığı döyüşlərdə məğlubiyyətə uğrayır və Şeybani Yedqarın oğlu Berke-sultandan yardım istəyir. Onun gəlişinə sevinən Berke-sultan “qoy mənim atam sarayda xan olsun, sən də onun bəylərbəyi ol” [12, s. 167] deyir. Manqıtları tərəfinə çəkməkdə marağı olduğu üçün Berke-sultan Musaya yardım edir. Yedqar xan taxtına oturan kimi Musanı bəy elan edir. Bir qədər güc topladıqdan sonra Berke-sultan və Musaxan qışda yürüşə çıxırlar. Bir qədər getdikdən sonra Musaxan piyada daha çox yol gedə bilməyəcəklərini deyir. Berke-sultan isə “iki gün də gedək, sonra bir şey fikirləşərik” deyir. Onlar iki gündən sonra gəlib bir çöllüyə çıxırlar. Çölün o biri başında yaşayış məskəni var idi. İki nəfər adamı xəbər gətirməsi üçün yollayırlar. Onlar da bir çoban tutub gətirirlər. Çoban bu evlərin Kucaş mirzənin olduğunu deyir. Onlar evə hücum edib Kucaş mirzəni öldürürlər, hər yeri yandırıb dağıdır, əhalini qılıncdan keçirirlər. Bütün qışı burada qalıb üzü yaza geri qayıdırlar [12, s. 168]. Yedqar və Berke-sultanın ölümündən sonra Musa artıq Manqıt yurdunu müstəqil şəkildə idarə edirdi.

Musa əmisi Abbasın ölümündən sonra hakimiyyəti heç kimlə paylaşmaq istəmədi. Qardaşı Jaŋbırşı onunla mübarizəyə girmək istəmədiyindən o, Noqay Ordasından ayrılıb Volqanın sağ sahilində məskunlaşdı. Onların kiçik qardaşları Həsən isə Musanın yanında qaldı. Musanın ölümündən sonra o, Noqay Ordasının başına keçdi.

Musanın çoxlu övladı var (iyirmi səkkiz, bəzən otuz olduğu deyilir) və onlar tarix səhnəsində az-çox özlərini göstərə biliblər. Onun oğlanlarından olan Orak və Mamay XVI əsrin birinci yarısında Noqay Ordasının və qonşu Krım, Həştərxan və Kazan xanlıqlarının tarixinə əhəmiyyətli dərəcədə təsir göstərmiş məşhur tarixi şəxsiyyətlərdir. Xalqın yaddaşında onların hər ikisi “köçəri noqay-qazax etnik qruplarının bayrağını ucaldan, xalqının şərəfi uğrunda mübarizə aparan cəsur igidlər kimi qalıb” [5, s. 172].

Musaxanın dövründə Noqay Ordası kifayət qədər güclənmişdi. Mamayın dövründə isə Noqay Ordasının əmin-amanlıq, çiçəkləndiyi dövrüdür desək, yanılmarıq. M.Axmetzyanov onun xan titulunu alaraq bir çox rus kəndlərini ələ keçirdiyini və hətta onlardan vergi aldığını deyir [6, s. 84]. Bildiyimiz kimi, o dövrdə Çingiz xanın soyundan olmayan heç kimsə, xan titulu ala bilmirdi. Mamayın belə adlanması onun xalq tərəfindən yüksək rəğbət qazanması ilə izah oluna bilər.

Noqaylara aid epik mətnlərdə göstərilir ki, Mamay atası Musa öldükdən sonra qardaşı Oradakı başqa qardaşlarının hakimiyyət uğrunda mübarizəsindən qorumaq üçün Asan Abız adlı müdrik bir sərkərdənin yanına qoyur [1]. Bu mətndə hakimiyyət uğrunda münaqişələr ən xırda detallarına qədər təsvir olunur. Burada əsas fiqurlardan biri Mamayın başqa qadından olan yeddi qardaşı və özünə doğma olan İsmayılın hakimiyyət çəkişmələri göstərilir. Tarixi sənədlərdə də [14] Mamayın sağ ikən onları bir yerdə sakit saxlamağı bacardığı qeyd olunur.

"Musaxan" dastanının ardınca onun oğullarından bəhs edən "Orak və Mamay" dastanı ilə "İsmayıl" dastanı yer alır. "Orak və Mamay" dastanının Nurtuqan Kenjekululı variantı geniş şəkildə ailədaxili münaqişələri özündə əks etdirir və bu variant Musaxanın ölümü ilə başlayır. "İsmayıl" dastanı isə Musaxanın İsmayıl adlı oğlunun bütün qardaşlarını və onların oğlanlarını öldürərək taxta çıxmasından bəhs edir. Bu, silsilənin içərisində yeganə dastandır ki, oğul öz nəslinə xüsusi amansızlıqla, qəddarlıqla yanaşır. Dastanın sonunda göstərilir ki, İsmayıl Musaxanın ocağında sağ qalan yeganə kişi olaraq taxta sahib olur.

Burada bir haşiyə çıxaraq demək istərdik ki, İsmayılın öz nəslinə qarşı amansız davranışı müxtəlif mətnlərdə qarşımıza çıxır. Silsiləyə daxil olan "Orak-Mamay" və "Karasay-Kazı" dastanları ilə bağlı olan epik mətnlərdə İsmayıl personajı xüsusilə diqqəti cəlb edir.

Mətnlərin birində deyilir ki, "bir dəfə uşaqları yatan yurta daxil olarkən Musa xan görür ki, Mamay qollarını açaraq, Orak yay çəkər kimi, İsmayıl isə ovucları arasında kərəgədən (yurtun məhəccəri – Q.Ş.) tutub bərk-bərk sıxaraq yatırlar. O zaman Musa xan deyir ki, "Mamay xan, Orak batır olacaq. İsmayıl isə heç yerdə eşidilməyən bir vəhşilik törədəcək". Gələcəkdə baş verəcək dəhşətli hadisəni hiss edən ata qılıncını çəkib onun üzərinə yürüyəndə anası onun əlindən yapışır. Qılınc sürüşərək uşağın ayağını yaralayır və beləcə, İsmayıl ömrü boyu axsaq qalır. Ona görə də onu Tobayak (axsaq) adlandırdılar" [9, s. 403; 10, s. 112].

"Jaŋbırşıulı Tel Aqıs" dastanı da Musaxanın şəcərəsinə bağlıdır. Amma təəssüf ki, Qırx batır haqqında dastan silsiləsi ilə bağlı aparılan tədqiqatlarda "Jaŋbırşıulı Tel Aqıs" dastanı "Müxtəlif batırlarla bağlı müstəqil jırlar" [7] silsiləsinin içərisində öyrənilir. Genealoji xətti tarixi və epik mətnlər əsasında izləyərək asanlıqla görmək olar ki, "Tel Aqıs Jaŋbırşının oğludur, Jaŋbırşı Okas bəyin, Okas bəy Nuradinin, Nuradin isə Edigeyin oğludur [5, s.323]. Genealoji sıralamada Jaŋbırşı Musaxanın oğlu, Orak ilə Mamayın qardaşıdır. Bizim "Jaŋbırşıulı Tel Aqıs" dastanını məhz "Anşıbay batır və onun nəsli" silsiləsində öyrənməyimizin səbəbi də elə budur. Əslində elə Tel Aqıs obrazına ilk dəfə "Musaxan" dastanında rast gəlirik. Xüsusi qəhrəmanlığı və yurd sevgisi ilə xarakterizə edilən bu obraz "İsmayıl" dastanında ailə münaqişəsinin mərkəzi fiqurlarından biri rolunda çıxış edir.

"Jaŋbırşıulı Tel Aqıs" dastanının Aysa Baytabınov variantında "Tel Aqıs Musaxanın qızı Kıybatı sevir. Musaxan bu izdivaca razı olsa da, oğlanları

razılaşmır və aralarında münaqişə yaranır. Bu münaqişənin isə əsas səbəbkarı İsmayıldır. O, Tel Aqısla Karasayın və Kazının arasını vurmağa müvəffəq olur. Onun təhriki ilə krımlılar Tel Aqısın auluna hücum edib onun mal-qarasını yağmalayırlar. Sonda müdrik Sapra jırau Jaŋbırşının ailəsini Musaxanın ailəsi ilə barışdırır, Kıybatı da Tel Aqısa ərə verir [4, s. 79]. Dastanın silsiləyə daxil olan Murın Sengirbekuli variantında isə kalmık xanı Beqen xanın üzərinə yürüşə gedəndə Tel Aqısın on yeddi, atası Jaŋbırşının isə yetmiş yaşı var idi. Əvvəlcə atası özünün yeganə oğlunu bu yürüşə buraxmaq istəmir, lakin sonradan aralarında İsmayıl da olmaqla Musaxanın otuz oğlunun müşayiəti ilə yola salır. Tel Aqıs Beqen xana qalib gələrək onun başını kəsir. Bu hadisədən bir qədər sonra Jaŋbırşı oğlunu Mamaya tapşıraraq dünyasını dəyişir. Tel Aqıs Mamayın bacısı Ak-Bilek-Sulu ilə evlənmək istəyir, lakin Musaxanın Mamaydan başqa digər oğlanları bu izdivaca razılıq vermir. Vəziyyətin belə olduğunu görən Mamay Tel Aqısa Ak-Bilek-Sulunu da götürüb Krım noqaylarının yanına qaçmağı məsləhət görür. Tel Aqıs Mamayı dinləyib Krım noqaylarının yanına qaçaraq Asan Kayğıdan yardım istəyir. Asan Kayğı da aralarında Sapra jıraunun da olduğu Krımın qırx batırı ilə birlikdə Tel Aqısı və Ak-Bilek-Sulunu müdafiə edərək Musaxanın oğlanlarının üzərinə qoşun yeridir. Bu zaman Sapra jırau məsələni sülh yolu ilə həll etməyi təklif edir. Hər iki tərəf təkliflə razılaşır, hamı Tel Aqısın auluna gedir. Beləliklə, Sapra jırau Jaŋbırşı ilə Musaxanın ailəsini barışdırır, Ak-Bilek-Sulu ilə Tel Aqısı evləndirir [8, s. 466-479].

Silsilənin "Kıdırbay batır və onun nəsli" həlqəsinin ilk bağı olan "Kıdırbayulı Kobılandı batır" dastanının S.Dilmanov nüsxəsində "Musaxan Kıdırbayulı Koblandının ana babasıdır" [13, s. 49]. "Anşıbay batır və onun nəsli" həlqəsinin səkkizinci bağı olan "İsmayıl" dastanının Nurtuqan Kenjekululı variantında isə "Edigeyin oğlu Nuradinin Şarabas adlı bir oğlu var idi. Şarabasın isə iki oğlu vardı – Abbas və Qabbas. Abbasın oğlu Musaxan idi, Qabbasın oğlu isə Jaŋbırşı. Musaxanın on iki oğlu vardı. Böyük arvadından Orak, Mamay, Alcagir və Sıydak, kiçik arvadından isə İsmayıl, Şamay, Karatal, Kaplan, Saymaqambet, Aymaqambet, Kopak. Bundan başqa, o, başqa tayfadan olan Matryoşka adlı qara qulu oğulluğa götürür. Jaŋbırşının isə Tel Aqıs və Küneke adlı iki oğlu var idi. Ölümündən əvvəl Musaxan oğlanlarını yanına çağırır, vidalaşaraq oğlanlarına yarışda qalib gələnə beş silah bağışlayacağını deyir. Birinci Orak, ikinci Mamay, üçüncü isə İsmayıl olur. Musaxan İsmayıla öz atını bağışlayır. O isə xanlığı alacağına ümid edirdi. Musaxanın dəfni zamanı İsmayıl atın yüyənini tutmaq istəyəndə o, qaçır, qəflətən yer yarılır və oraya düşür. Onu tutmaq istəyəndə İsmayıl da atın arxasınca quyuya düşür" [9, s. 400-402].

Göründüyü kimi, epik mətnlər bir qədər fərqli olsa da, qəhrəmanın şəcərəsini açıq şəkildə göstərir. Üstəlik də silsiləyə daxil olan dastanların hamısının genealoji bağlarla bir-birinə müxtəlif şəkildə bağlandığının şahidi oluruq.

Təəssüflə qeyd edək ki, "Musaxan" dastanı o qədər də geniş öyrənilməyən, çağdaş söyləyici-jıravların repertuarında aktiv şəkildə yer almayan bir epik mətndir. Amma orta əsrlər tarixini və epik təfəkkürünü öyrənmək üçün dastan əvəzsiz mənbədir.

**Ədəbiyyat**

1. Çetin, P. Nogay Türklerinin Mamay Destanı`na Genel Bir Bakış. // Kesit Akademi Dergisi. – 2020, 6(23). – s.257-277.

2. Musahan // Kazak Destanları – IV. Kırım`ın Kırk Batırı. / çev. F.Türkmen, M.Ekici. – Ankara: Türk Dil Kurumu Yayınları, − 2007. − s. 228-255.

3. Nuradin. // Kazak Destanları – IV. Kırım`ın Kırk Batırı. / çev. F.Türkmen, M.Ekici. – Ankara: Türk Dil Kurumu Yayınları, − 2007. − s. 184-227.

4. Şəhriyar, Q. Türk xalqlarının dastan yaradıcılığında "Edigey". / Monoqrafiya. – Bakı: Elm və Təhsil. – 2024. – 256 s.

5. Алпысваева, Қ.Б., Әуесбаева П.Т. Қолжазба қорларындағы батырлық жырларындың живалу тарихы. / Монография. – Алматы: Әдебиет Әлемі. – 2017. – 336 б.

6. Ахметзянов, М.И. Между Волгой и Уралом. // Идель. Казань. – 1991. №10-11. – с. 82-84.

7. Дала фольклорының антологиясы. Батырлар жыры. 10 томдық, 2 том. / Томды құрастырып, баспаға дайындағандар С.И.Сәкен, Н.Ә.Сәрсек. – Алматы: Brand Book. – 2019. – 569 б.

8. Жаңбыршыұлы Телағыс батыр. // Дала фольклорының антологиясы. Батырлар жыры. 10 томдық, 2 том. / Томды құрастырып, баспаға дайындағандар С.И.Сәкен, Н.Ә.Сәрсек. – Алматы: Brand Book. – 2019. – б. 466-479.

9. Жирмунский, В. Тюркский героический эпос. – Ленинград: Издательство «Наука» Ленинградское отделение, − 1974. – 728 с.

10. Жумалиев, Х. Қазақ әдебиеті. Алма-Ата: Издание Казахского объединенного издательства. – 1942. – 242 б.

11. Мұса хан // Дала фольклорының антологиясы. Батырлар жыры. 10 томдық, 2 том. / Томды құрастырып, баспаға дайындағандар С.И.Сәкен, Н.Ә.Сәрсек. – Алматы: Brand Book. – 2019. – б. 94-106.

12. Родословное древо Тюрковъ. Сочиненіе Абуль-Гази, Хивинскаго хана. / Переводъ и предисловіе Г.С.Саблукова, съ послѣсловіемъ и примѣчаніями Н.Катанова. – Казань: Типо-литографія Императорскаго Университета. – 1906. – 352 с.

13. Сабитов, Ж.М. Кобланды из рода Каракыпшак // Тарих тағылымы. № 1 (9). Астана. – 2016. – С. 44-52

14. Трепавлов, В.В. История Ногайской Орды. / Отв. ред. М.А. Усманов. – Москва: Издательская фирма «Восточная литература» РАН. – 2002. – 752 с.